# Silahlı Qüvvələrin yaradılmasının 97 illiyi münasibətilə tədbir






Azərbaycan Respublikası Silahlı Qüvvələrin yaradılmasının 97-ci ildönümü münasibəti ilə Azərbaycan Dövlət Aqrar Universitetində tədbir keçirilmişdir. Şəhər ictimaiyyətinin, professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə gerçəkləşən tədbirdə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov qeyd etdi ki, müstəqil Azərbaycan dövlətinin hərtərəfli və sürətli inkişafını müəyyən edən amillər içərisində möhkəm iqtisadi potensial, insanların yaxşı şəraitdə yaşaması və güclü ordunun mövcudluğu prioritet məsələlərdəndir. Bu baxımdan Azərbaycan Silahlı Qüvvələri çətin və əzablı, lakin şərəfli bir inkişaf yolu keçmişdir. Silahlı Qüvvələrin yaradılmasından ötən bu illər ərzində ordumuzun potensial imkanlarının genişləndirilməsi və peşəkar hərbi kadrların hazırlanması sahəsində böyük işlər görülmüşdür. Müasir milli ordumuz həm də müstəqilliyimizin qorunmasında və möhkəmlənməsində, ölkəmizin bölgədə geopolitik güc mərkəzi kimi özünü təsdiqləməsində önəmli rol oynayır. Bəli, bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə güclü və nizamlı ordu qurulub, Silahlı Qüvvələr müasir texnika və silahlarla təchiz olunub və bölgənin ən güclü ordusuna çevrilib. Azərbaycan ordusunun peşəkarlığı, döyüş qabiliyyəti gündən-günə artır.

Tədbirin bədii hissəsində tələbələr hazırladığı ədəbi-bədii kompozisiya və konsert proqramı ilə iştirakçıların könlünü oxşadı.

**Z.XƏLİLOV,**
**"Respublika".**